**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.246

**CƏMİLƏ ABDULZADƏ***

# AZƏRBAYCAN XOR SƏNƏTİNİN İNKİŞAFINDA SEVİL HACIYEVANIN ROLU

*Azərbaycan musiqi mədəniyyəti, zəngin tarixi və bənzərsiz simaları ilə dünya musiqi irsinə mühüm töhfələr vermişdir. Bu irsin əsas sütunlarından biri dahi bəstəkar Üzeyir Hacıbəyli olmuşdur. O, Azərbaycan klassik musiqisinin əsasını qoyaraq milli musiqini Avropa musiqi formaları ilə sintez etmiş və gələcək nəsillər üçün dəyərli irs yaratmışdır.*

*Məqalədə Azərbaycanın aparıcı qadın dirijoru, xormeyster, Əməkdar incəsənət xadimi Sevil Hacıyevanın həyat və yaradıcılığına nəzər salınır. Sevil xanımın xor musiqisi sahəsindəki peşəkar fəaliyyəti, onun Opera və Balet Teatrında, həmçinin də pedaqoji sahədə qazandığı nailiyyətlərlə müşayiət olunur. O, bir çox yerli və beynəlxalq layihələrdə uğurla çıxış edərək Azərbaycan musiqisinin tanınmasında böyük rol oynayır.*

*Sevil Hacıyeva həm klassik Azərbaycan operalarına, həm də dünya musiqi əsərlərinə dirijorluq edərək qadın musiqiçilərin sənətdəki yerini möhkəmləndirmişdir. Onun tədris metodikası, yüksək peşəkarlığı və yaradıcılığı Azərbaycan musiqi təhsilinə və teatr sənətinə misilsiz töhfələr vermişdir.*

***Açar sözlər:*** *Azərbaycan musiqi mədəniyyəti, Üzeyir Hacıbəyli, Sevil Hacıyeva, xor musiqisi, qadın dirijor, xormeyster.*

## Giriş



Azərbaycan musiqi mədəniyyəti, öz zənginliyi və müxtəlifliyi ilə dünya musiqi irsinə əvəzsiz töhfələr vermişdir. Tarixə nəzər saldıqda, Azərbaycan klassik musiqisinin əsasında duran ən önəmli fiqurlardan biri, şübhəsiz ki, dahi bəstəkar Üzeyir Hacıbəyli olub. Onun müstəsna yaradıcılığı və musiqi sahəsindəki dərindən düşünülmüş yanaşması bütün Azərbaycan musiqisinin inkişafına yön vermişdir. Üzeyir Hacıbəyli, Azərbaycan klassik musiqisinin banisi olaraq, bu sahənin əsasını qoymuş və onu yeni zirvəyə daşıyan bir lider, həm də mütəfəkkir olmuşdur.

## Əsas təhlil

Əlbəttə ki, Azərbaycan klassik musiqisinin yaranmasında və inkişafında Üzeyir Hacıbəylinin rolu danılmazdır. O, musiqinin fundamental prinsiplərini formalaşdıraraq, həm milli, həm də ümumbəşəri musiqi irsində özünəməxsus bir yer tutmuşdur. Hacıbəylinin yaradıcılığı yalnız onun dövrü ilə məhdudlaşmır; əksinə, onun musiqi yolu, gələcək nəsillər üçün möhkəm bir təməl qoymuşdur. Bu təməl, Azərbaycan musiqisinin keyfiyyətli inkişafı üçün vacib bir baza olmuş, həmçinin yüksək səviyyəli musiqiçilərin yetişməsinə zəmin yaratmışdır.

Dahi bəstəkarın müdrik yanaşması və düzgün istiqamət verməsi, onun ideyalarını davam etdirən musiqiçilər və bəstəkarlar üçün böyük bir ilham mənbəyi olmuşdur. Bu da nəticə etibarilə, Azərbaycan musiqi mədəniyyətinin zamanla zənginləşməsinə və dünya səhnəsində daha geniş bir tanınma əldə etməsinə şərait yaratmışdır. Bu gün, Üzeyir Hacıbəylinin qoyduğu zəngin irs üzərində

yüksələn Azərbaycan musiqisi, müasir dövrün tələblərinə uyğun olaraq həm yüksək professional səviyyəyə çatmış, həm də dünya musiqi xəzinəsinə öz töhfələrini təqdim etməyə davam edir.

Hazırkı məqalədə, musiqi sənətinin əhəmiyyətli bir qolu olan xor musiqisində dərin izlər qoymuş, eyni zamanda bu sahəyə öz yaradıcı töhfələrini vermiş Azərbaycan musiqi mədəniyyətinin önəmli simalarından biri, Azərbaycanda aparıcı qadın dirijor olaraq tanınan, Əməkdar İncəsənət Xadimi, Prezident təqaüdçüsü, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş xormeysteri və dirijoru Sevil Hacıyevanın həyat və yaradıcılığına nəzər salmaq məqsədini güdürük. Sevil Hacıyeva, öz sənət fəaliyyətində yalnız peşəkar bacarığı ilə deyil, həm də xor musiqisi sahəsindəki özünəməxsus yanaşmaları ilə diqqət çəkən bir şəxsiyyət olaraq, Azərbaycan musiqisinin inkişafında mühüm rol oynamışdır.

Təbii ki, musiqi sahələrində ilklərə imza atan şəxsiyyətlərin fəaliyyəti və yaradıcılığı həmişə böyük marağa səbəb olmuşdur. Sevil xanımın da bu sahədəki uğurları, təkcə Azərbaycan musiqisinin deyil, eyni zamanda dünya musiqi mədəniyyətinin zənginləşməsinə olan töhfələri ilə də diqqətə layiqdir. Onun fəaliyyəti, qadınların sənət və mədəniyyət sahəsindəki yerini gücləndirən, bir çox yeni perspektivlər açan bir yoldur.

Azərbaycan milli xor sənətinin inkişafında mühüm rol oynamış və bu sahədə böyük uğurlara imza atmış Sevil İnşalla qızı Hacıyeva, musiqi təhsilinə 1982-ci ildə başlayaraq, ilk təhsilini fortepiano ixtisası üzrə G.G.Şaroyev adına Musiqi Məktəbində almışdır. 1993-cü ildən 1997-ci ilə qədər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının xor dirijorluğu fakültəsində bakalavr təhsili almış, daha sonra isə 1997-1999-cu illər ərzində həmin akademiyanın magistr pilləsində təhsilini davam etdirmişdir. 1999-cu ildə Sevil Hacıyeva BMA-nın dirijorluq fakültəsini – Azərbaycanın Xalq artisti Yalçın Adıgözəlovun sinifini uğurla bitirmişdir.

Uşaqlıqdan musiqiyə dərin marağı olan Sevil xanım, xüsusilə xor sənətinə olan sevgisini erkən yaşlardan hiss etməyə başlamışdır. O, məktəbdə xor dərslərinə böyük həvəs göstərir, hər zaman xorda iştirak etməkdən məmnun olurdu. Bu erkən istək və sevgi, onun gələcək peşəsini müəyyənləşdirməklə yanaşı, xor sənətində dərin bilik və təcrübə əldə etməsi üçün bünövrə olmuşdur. Xor musiqisinə olan bu xüsusi maraq, onu bu sahədə təhsil almağa və peşəkar olaraq inkişaf etməyə yönəltmişdir.

Sevil Hacıyeva, Bakı Musiqi Akademiyasının xor dirijorluğu ixtisasında təhsil alarkən, tanınmış musiqiçi və pedaqoq Zərifə İsmaylovanın sinfində təhsil almışdır. Zərifə xanım, o dövrün qabaqcıl pedaqoqlarından biri olmaqla yanaşı, həm də həmin kafedranın müdiri idi. Lakin Zərifə xanım Türkiyəyə köçdükdən sonra, Sevil Hacıyeva öz sahəsində böyük nüfuzu olan Xalq artisti, professor Yalçın Adıgözəlovun sinifində dərs almağa başlamış və ondan peşəkar təlim almışdır. Bu təhsil yolu Sevil Hacıyevanın musiqi sahəsindəki inkişafına böyük təsir göstərmiş və onu bu günə qədər tanınan bir xormeyster və dirijor olaraq formalaşdırmışdır.

Sevil Hacıyeva 1999-cu ildə Bakı Musiqi Akademiyasının dirijorluq fakültəsini bitirdikdən sonra təhsil aldığı akademiyada Vasif Adıgözəlovun assistenti vəzifəsində işə başlamışdır. Bu vəzifəyə qəbul edilməsi, Sevil xanımın təhsil aldığı dövr ərzində qazandığı mükəmməl bilik və bacarıqlarının nəticəsi olaraq, onun peşəkar və pedaqoji fəaliyyətindəki növbəti mərhələyə keçidini simvolizə edirdi. Karyerasının bu erkən mərhələsində o, həm öz təcrübələrini tələbələrlə bölüşür, həm də gələcək peşəkar xormeyster və dirijorları yetişdirmək üçün öz təhsilinə davam edirdi. Həmçinin o, Azərbaycanın Xalq artisti, professor Gülbacı İmanovanın rəhbərliyi altında Dövlət Kapellasında işləyib, ondan xor incəliklərini, metodika xüsusiyyətlərini öyrənirdi.

2000-ci ildən etibarən Sevil Hacıyeva Bakı Musiqi Akademiyasında müəllim kimi fəaliyyət göstərməyə başlamış, burada xor dirijorluğu üzrə dərslər vermişdir. Onun pedaqoji fəaliyyəti, yalnız

tələbələrə xor musiqisinin incəliklərini öyrətməklə məhdudlaşmayıb, həm də bu sahədə yeni metodik yanaşmaların tətbiqinə zəmin yaratmışdır. 2016-cı ildə isə Sevil xanımın pedaqoji fəaliyyətinin yüksək qiymətləndirilməsi nəticəsində o, dosent vəzifəsinə yüksəldilmişdir. Bu təyinat, onun akademik təhsil sahəsindəki dərin biliklərini və bu sahədəki təcrübəsini sərgiləyən mühüm bir addım olmuşdur.

2019-cu ildən Sevil Hacıyeva Azərbaycanın digər tanınmış təhsil müəssisəsi olan Milli Konservatoriyada pedaqoji fəaliyyətini davam etdirir. Burada da o, öz bilik və təcrübələrini yeni nəslə ötürməklə yanaşı, müasir təhsil metodları və yanaşmaları ilə xor musiqisi sahəsindəki tədris prosesinə əhəmiyyətli töhfələr verməyə davam edir. Onun bu sahədəki uğurlu fəaliyyəti, Azərbaycan musiqi təhsilinin inkişafına ciddi təsir göstərmiş və gələcəkdə də yüksək ixtisaslı musiqiçilərin yetişməsinə xidmət etmişdir.

Pedaqoji fəaliyyətinə nəzər salaraq, qeyd olunmalıdır ki, onun bir sıra tələbəsi müxtəlif nüfuzlu Respublika və Beynəlxalq müsabiqələrdə iştirak edərək laureat adını qazanmışlar.

Özünün pedaqoji fəaliyyəti haqqında danışarkən Sevil xanım qeyd edir: "Mən 1999-cu ildən Bakı Musiqi Akademiyasında dərs deyirəm. Bu illər ərzində çox sayda tələbələrim olub. Onlardan əksəriyyəti artıq özləri akademiyada dərs deməyə başlamışlar. Digər ali təhsil müəssisələri ilə müqayisədə, bizdə müəllimlə tələbə arasındakı münasibətlər bir qədər qeyri-rəsmidir desək yanılmarıq. Bizim müəssisədə bu münasibətlər daha mehriban, etibarlı, isti və səmimi olur. Bəlkə də bunun səbəbi odur ki, dirijorluq üzrə dərslər fərdi şəkildə keçirilir və bu, insanların bir-birini daha yaxşı tanımasına imkan verir. Buna görə də daha fərqli münasibətlər yaranır. Necə deyirlər, "əgər ruhən bir-birimizə bağlansaq, bu artıq ömür boyu davam edəcək". Mənim də öz müəllimim – Yalçın müəllimlə, həmçinin Opera və Balet Teatrının baş dirijoru Cavanşir Cəfərovla belə münasibətlərim olub. Bizim münasibətlərimiz hər zaman qarşılıqlı hörmət və anlayış üzərində qurulub".

Qürur hissi ilə vurğulamaq istərdim ki, Sevil Hacıyevanın sinfində təhsil almaq mənim üçün böyük bir şərəf olmuşdur və həmin dövrləri hər zaman qiymətli və unudulmaz xatirələrlə yad edirəm. O, işində son dərəcə ciddi, tələbkar, məsuliyyətli və peşəkar bir pedaqoq idi. Sevil xanımın hərtərəfli biliklərə və geniş erudisiyaya malik olması dərs prosesini yalnız akademik baxımdan zənginləşdirməklə yanaşı, eyni zamanda çox maraqlı və yaddaqalan edirdi. Onun pedaqoji fəaliyyəti özündə yalnız tədrisin keyfiyyətini deyil, həm də tələbələrin yaradıcı düşünmə və müstəqil təhlil qabiliyyətlərini inkişaf etdirməyə yönəlmiş metodik yanaşmaları əks etdirirdi.

Xor sənətinin tədrisində Sevil xanımın özünəməxsus metodik prinsipləri mövcud idi. O, hər bir mövzunu asan və anlaşılan şəkildə izah edərək tələbələrə dərsin məzmununu dərindən mənimsəməkdə kömək edirdi. Məsələn, dirijorluq etmənin ilk mərhələlərində əllərin düzgün quruluşunu təmin etmək məqsədilə royalın üstündə məşqlər etdirməklə tələbələrə əllərin dayaq nöqtələrini və hərəkətlərini mükəmməl şəkildə mənimsətməyə çalışırdı. Bu yanaşma həmçinin onun dərslərinə tətbiq etdiyi praktik metodların dərindən anlaşıla bilməsini və tətbiqini təmin edirdi.

Onun prinsiplərini mən də öz pedaqoji fəaliyyətimdə tətbiq etməyə çalışıram və onların effektivliyinə dair müsbət nəticələr əldə etmişəm. Sevil xanımın tədrisindəki yüksək səviyyə və metodik yanaşmalar mənim üçün daim ilham mənbəyi olmuş və təhsil sahəsindəki fəaliyyətimdə dəstək vermişdir.

Xüsusilə, Sevil xanımın mənə yalnız pedaqoq kimi deyil, eyni zamanda dost olaraq da yanaşması onun insanpərvər və yüksək insani keyfiyyətlərə malik olduğunu bir daha nümayiş etdirir.

Pedaqoji fəaliyyətlə yanaşı Sevil Hacıyeva həm də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında çalışır. 2000-ci ildə Sevil xanım xormeyster vəzifəsində çalışmağa başlayır. 2003-cü ildə Azərbaycan Dövlət Filarmoniysına və Mahnı və rəqs teatrına dəvət olunur. Beləliklə, o, 2003-cü ildən 2009-cu ilə qədər Azərbaycan Dövlət Akademik Filarmoniyasının Fikrət Əmirov adına "Mahnı və rəqs" ansamblında xormeyster vəzifəsində çalışmışdır. İşlədiyi illər ərzində xor inkişaf etmiş, respublika daxilində çox sayda qastrol səfərlərində olmuşdur.

Qeyd olunduğu kimi, 2003-cü ildə Sevil Hacıyeva Azərbaycan Dövlət Opera və Balet Teatrının baş xor dirijoru vəzifəsinə təyin edildi. Onun rəhbərliyi altında xor kollektivi həm milli, həm də klassik opera tamaşalarında yüksək peşəkarlıq nümayiş etdirirlər. Teatrda fəaliyyət göstərdiyi müddət ərzində özünün yüksək peşəkarlığı və müstəsna bacarığı ilə diqqət çəkən Sevil Hacıyevaya, 2006-cı ildə Üzeyir Hacıbəylinin məşhur «Leyli və Məcnun» operasının dirijorluğunu həvalə olundu. Bu, onun üçün böyük bir məsuliyyət olsa da, o, çətin tapşırığı müvəffəqiyyətlə yerinə yetirərək, Azərbaycanın ilk qadın dirijoru kimi tarixə düşdü. Sevil Hacıyeva həmin hadisəni belə xatırlayır: "İlk tamaşa – Üzeyir Hacıbəylinin «Leyli və Məcnun» operası, şübhəsiz ki, mənim üçün ən çətin və ən məsuliyyətli iş idi. Çətinlik ondan ibarət oldu ki, bu, mənim dirijor olaraq çıxış edəcəyim ilk tamaşa idi. Sonrakı tamaşalar artıq nisbətən daha asan keçdi, çünki həmin vaxt artıq təcrübə qazanmışdım. Məsələn, Üzeyir Hacıbəylinin başqa bir əsəri olan «Əsli və Kərəm» operasında həm ümumi musiqi rəhbəri, həm də xor rəhbəri olaraq çıxış etdim".

Bu dövrdə Sevil Hacıyeva yalnız teatrın xor fəaliyyətinə rəhbərlik etmək ilə kifayətlənməyib, həm də onun peşəkarlığı və təcrübəsi Azərbaycan mədəniyyətində mühüm yer tutmuşdur.

2006-cı ildən S.Hacıyeva artıq 10 tamaşaya rəhbərlik edir. Onların sırasında – Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operaları, "Arşin mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operası, Müslüm Maqomayevin "Şah İsmayıl" operası, Nazim Əliverdibəyovun "Cırtdan" uşaq operası, Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baleti", İohann Ştrausun musiqisi əsasında "Düyməcik" baleti və d. göstərə bilərik.

Sevil Hacıyeva Opera və balet teatrının kollektivi ilə Qətər dövləti və Türkiyə respublikasında keçirilən qastrol səfərlərində, eyni zamanda Azərbaycanda keçirilən Üzeyir Hacıbəyli adına Beynəlxalq musiqi festivalı və beynəlxalq "İpək yolu" festivallarında, həmçinin bölgələrə qastrol səfərlərində uğurla çıxış edərək orkestri böyük məharətlə idarə etməyə müvəffəq olmuşdur.

Qeyd etmək lazımdır ki, həmin dövrdə rəhbərliyin sərəncamına əsasən teatrın repertuarında olan bütün operalar orijinal dillərində ifa olunmağa başlamışdır. Beləliklə, bu mühüm nailiyyət Sevil xanımın böyük əzmkarlığı və təcrübəsi sayəsində və onun teatrın baş xormeysteri və rəhbəri kimi apardığı çətin və gərgin işlərin nəticəsində baş vermişdir. Sevil xanım, bir xormeyster kimi, təkcə Azərbaycan bəstəkarlarının əsərlərində deyil, həm də dünya operalarında böyük uğurlar qazanmışdır. Onun rəhbərlik etdiyi ən önəmli operalar arasında Üzeyir Hacıbəylinin «Koroğlu» və «Leyli və Məcnun», Müslüm Maqomayevin «Şah İsmayıl», Zülfüqar Hacıbəyovun «Aşıq Qərib», Fikrət Əmirovun «Sevil», Rauf Mustafayevin «Vaqif», Vasif Adıgözəlovun «Natəvan», Cüzeppe Verdinin «Aida», «Riqoletto», «Traviata» və «Trubadur», Ciakomo Puççininin «Bohema» və «Toska», Ruccero Leonkovallonun «Payatsı» və Corc Bizenin «Karmen» kimi klassik operaları xüsusi yer tutur. Bunlarla yanaşı Lüdviq van Bethovenin 9-cu simfoniyasının final hissəsindəki "Sevincə doğru" Odasının ifasını da xüsusi qeyd etmək lazımdır.

Həmçinin, Sevil xanımın bu əsərlərlə yanaşı, çox sayda beynəlxalq səhnədə də böyük uğurlar əldə etdiyini vurğulamaq lazımdır.

O, 2005-ci ildə Azərbaycanda mədəniyyətin inkişafına verdiyi töhfələrə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Əməkdar İncəsənət Xadimi» fəxri adı ilə təltif edilmişdir. Bu yüksək mükafat, Sevil xanımın sənət sahəsindəki böyük fəaliyyətinin və Azərbaycan musiqi mədəniyyətinə verdiyi dəyərin göstəricisidir.

"İpək Yolu" festivalı çərçivəsində Avropadan bir çox məşhur dirijorlar premyera tamaşaları ilə Bakıya gəlmişdir. 2020-ci ildən pandemiyadan sonrakı dövrdə teatrda xorun tərkibi yenilənib və genişləmişdir. Sevil xanım həm dirijor, həm də xormeyster olaraq bu dövrün ən çətin vaxtında belə teatrın yüksək səviyyədə fəaliyyətini təmin etməyə müvəffəq olmuşdur. Bunun nəticəsində 2020-ci ildə ilk dəfə olaraq Şuşaya səfər edən xor, "Xarı Bülbül" festivalı çərçivəsində iki böyük tamaşa hazırlamış və müvəffəqiyyətlə çıxış etmişdır.

Sevil xanımın peşəkar fəaliyyətinə əlavə olaraq, onun Üzeyir Hacıbəyli haqqında çəkilən film layihəsində də böyük rolu olmuşdur. Bu film çəkişlərində opera teatrının xorunun aktiv iştirakını da vurğulamaq lazımdır. Sevil xanımın həmçinin Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Gəncədə bir çox uğurlu çıxışları baş tutub.

2021-ci ildə Moskvadan gələn qonaqlar «Nizami» operasının çəkilişlərini həyata keçirmiş və burada da Sevil xanımın rəhbərliyi altında xor çıxış etmişdir. Sevil xanımın rəhbərlik etdiyi xor bu layihə çərçivəsində həm keyfiyyətli ifası, həm də səhnə hazırlığı ilə diqqət çəkmişdir.

2024-cü il 19 dekabr tarixində Şərqdə opera yazmış ilk qadın bəstəkar Şəfiqə Axundovanın 100 illiyi ilə əlaqədar onun "Gəlin qayası" operasına Sevil xanım dirijorluq etmişdir. Onun üçün premyera idi.

Bu tamaşa Azərbaycanın musiqi mədəniyyəti üçün çox önəmli bir hadisədir və görkəmli bəstəkarın irsini yaşatmaq, eyni zamanda onun əsərlərini yeni nəsillərə təqdim etmək məqsədini daşıyır.

2024-cü il dekabrın 19-da, Şərqdə opera yazmış ilk qadın bəstəkarı olan Şəfiqə Axundovanın 100 illik yubileyi ilə əlaqədar olaraq, onun məşhur "Gəlin qayası" operasının premyerası baş tutmuşdur. Bu tamaşaya Sevil xanım dirijorluq etmişdir və bu, onun üçün böyük bir debüt tamaşa idi. Opera Azərbaycanın musiqi mədəniyyəti üçün çox mühüm bir hadisə olmaqla yanaşı, həm də görkəmli bəstəkarın irsini yaşatmaq və onun əsərlərini yeni nəsillərə təqdim etmək məqsədini daşıyırdı.

Ümumiyyətlə, uzun illər ərzində fəaliyyət göstərən Sevil Hacıyeva, Azərbaycan dirijorları və Xalq artistləri – Rauf Abdullayev, Cavanşir Cəfərov, Fəxrəddin Kərimov, Yalçın Adıgözəlov və digərləri ilə əməkdaşlıq etmiş və bu tanınmış mütəxəssislərlə sıx ünsiyyətdə olmuşdur. Həmçinin, o, bir çox beynəlxalq səviyyəli dirijorlarla da birlikdə çalışmışdır. Məsələn, Mikelancelo Matsa (İtaliya), Yakopo Sipari di Peskaserolli (İtaliya), Korneliya fon Kerssenbok (Almaniya), Andrey Anixanov (Rusiya), Migel Kampos Neto (Braziliya) ilə əməkdaşlıq edərək, Azərbaycan xor kollektivləri ilə birgə çoxsaylı möhtəşəm layihələrə imza atmışdır.

Bu beynəlxalq mütəxəssislər, hər biri öz ölkələrində və dünya səhnəsində tanınan peşəkarlar olaraq, Azərbaycan xor kollektivinin ifasından heyran qalmış və onun yüksək peşəkarlığını vurğulamışlar. Onların iştirakı ilə keçirilən məşqlər və konsertlər yalnız Azərbaycan musiqisinin deyil, həm də bu kollektivin dünya səhnəsindəki nüfuzunun artmasına böyük təsir göstərmişdir. Bu əməkdaşlıq, həmçinin Azərbaycan musiqi mədəniyyətinin beynəlxalq səviyyədə tanınmasına mühüm töhfələr vermişdir.

Belə ki, 2024-cü ilin fevralında, italyan dirijoru Mikelancelo Matsa ilə birgə, S.Hacıyeva və Azərbaycan xor kollektivinin ifasında C.Verdinin məşhur "Rekviyem" əsəri yüksək professionallıqla təqdim olunmuşdur. Bu möhtəşəm konsert, həm yerli, həm də beynəlxalq

səviyyədə böyük maraqla qarşılanmış və dinləyicilər tərəfindən yüksək qiymətləndirilmişdir. Bu təqdimat, hər iki tərəfin təcrübə və bacarıqlarını birləşdirərək, həm musiqiçi, həm də dinləyici baxımından unudulmaz bir təəssürat yaratmışdır.

Yaradıcı fəaliyyəti ilə yanaşı, Sevil Hacıyevanın ədəbiyyata olan marağı da xüsusi olaraq qeyd edilməlidir. O, böyük bir həvəs və sevgi ilə yanaşır və mütaliənin onun dünyagörüşünün genişlənməsinə də kömək etdiyini vurğulayır. Sevil xanımın sənətə olan sonsuz sevgisi və ədəbiyyata olan marağı, onun həyatında və işində daim yeni yaradıcı ideyaların ortaya çıxarmasına kömək edir.

"Həyatımda kitablar da xüsusi yer tutur. Kitab oxumaq mənim üçün böyük bir həzzdir. Ən çox rus klassikasını oxumağı sevirəm, çünki bu ədəbiyyat insanların daxili aləmini, müasir dövrümüzü çox gözəl əks etdirir. Son zamanlar isə elmi-publisistik ədəbiyyata da marağım artıb. Çünki bu səpkili kitablar mənə yeni biliklər qazandırır, həm də dünyagörüşümü genişləndirir. Mənim üçün ən vacib olan isə kitabların məni düşündürməsi və həyatımı daha zəngin etməsidir".

Sevil Hacıyevanın geniş və məhsuldar yaradıcılıq fəaliyyəti, onun sənət sahəsindəki əvəzsiz töhfələri, xüsusilə də musiqi mədəniyyətimizin inkişafına verdiyi böyük dəstəyə görə 2021-ci ildə "Bakılı" Beynəlxalq Mədəniyyət Cəmiyyəti və "Humay" Milli Mükafatı Akademiyası tərəfindən təsis olunan "Humay" milli mükafatına layiq görülməsinə səbəb olmuşdur. Bu və digər mükafatlar Sevil xanımın sənət dünyasında əldə etdiyi uğurların və onun musiqi sənətinə verdiyi dəyərin qiymətləndirilməsidir.

S.Hacıyeva bu gün də həm sənətkar kimi bacarığı, həm də professional yanaşması ilə opera səhnələrində böyük uğurlar qazanmağa davam edir. Onun rəhbərlik etdiyi xor və dirijorluq etdiyi operalar hər zaman yüksək səviyyədə təqdim olunur və tamaşaçıları həm musiqi, həm də səhnə estetikası baxımından heyran edir. Sevil xanımın sənətə olan sonsuz sevgisi və fədakarlığı, onun hər bir tamaşasında özünü mükəmməl şəkildə göstərir. Biz əminik ki, gələcəkdə də onun rəhbərlik etdiyi və dirijorluq etdiyi daha çox opera tamaşaları olacaq və bu tamaşalar da yenə öz yüksək peşəkarlığı və yaradıcı yanaşması ilə hər zaman gözəl sənətə maraq göstərən izləyiciləri sevindirəcək və heyran edəcəkdir.

**Nəticə**

Sevil Hacıyevanın fəaliyyəti Azərbaycan musiqi mədəniyyətinə və teatr sənətinə dəyərli töhfələr vermiş, rəhbərlik etdiyi hər bir tamaşa isə sənət yolunun yeni bir zirvəsi kimi tarixə düşmüşdür. Onun yaratdığı unikal performanslar, istər opera sahəsində, istərsə də xor dirijorluğu sahəsindəki uğurları, yalnız Azərbaycanda deyil, bütövlükdə dünya səhnəsində də yüksək qiymətləndirilmişdir. Sevil Hacıyeva, öz peşəkarlığı ilə müasir dövrün teatr və musiqi sənətində yeni standartlar müəyyənləşdirərək, gənc nəsil dirijor və musiqiçilərə örnək olmuşdur. Hər bir tamaşası onun sənət yolunun keçid pilləsi olub və zəngin təcrübəsi ilə zənginləşərək, Azərbaycan mədəniyyətinin daha da artıq inkişafına xidmət edir.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində***

1. Ağayeva S. Musiqi texnologiyasında xor dirijorluq fənlərin tədrisi. B.: 1985.
2. Axundova G. Azərbaycan xor sənətinin inkişafında Gülbacı İmanovanın rolu. Bakı, "Dil və ədəbiyyat" j-lı № 1, 2015
3. Axundova G. Azərbaycan teatr dirijorları. Bakı, "Musiqi dünyası" j-lı № 1-2, 2015
4. Axundova G. Azərbaycanın ilk qadın dirijorları. Bakı, "Dil və ədəbiyyat" j-li, № 1, 2015

5. Dilbazi M.X. Bakinin musiqi hayatı (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri). B.: Mütərcim, 2007, 256 s.
6. Hacıbəyov Ü. İlk Azərbaycan xoru. Əsərləri - 2 cild, Bakı, 1965
7. Hacıbəyov Ü. İlk Azərbaycanın musiqi sənəti haqqında. Bakı: "Azərnəşr", 1966

***Rus dilində***

1. Анисимов А. Дирижер хормейстер. Ленинградское отделение, Музыка, 1976, 159 с.
2. Асафьев Б.В. О хоровом искусстве, Л.: Музыка, 1980, 215 с.
3. Гаджибеков У.А. О музыкальном искусстве Азербайджана. Б.: Азернешр, 1966, 152 с.
4. Мамедова Л.М. Хоровая культура Азербайджана. Пути становления перспективы развития хорового истолнительства. Учебное пособие. Б.: Адилоглу, 2010, 232 с.

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Xor dirijorluğu" kafedrasının baş müəllimi***

**Jamila Abdulzadeh**

## THE ROLE OF SEVIL HAJIYEVA IN THE DEVELOPMENT OF AZERBAIJANI CHORAL ART

Azerbaijani musical culture, history and unique features make significant contributions to the world musical heritage. One of the main pillars of this heritage was the great composer Uzeyir Hajibeyli. He laid the foundation of Azerbaijani classical music, synthesized national music with European musical forms, and created a valuable heritage for future generations.

The article examines the life and work of Sevil Hajiyeva, a leading female conductor, choirmaster, Honored Artist of Azerbaijan. Sevil's high-level activity in the field of choral music is combined with her achievements in the Opera and Ballet Theater, as well as her pedagogical potential. She plays a recognized role in Azerbaijani music by successfully performing in many local and international projects.

Sevil Hajiyeva has taken the place of female musicians in art as a conductor of both classical Azerbaijani operas and world music works. Her teaching methodology, high level and creativity make unparalleled contributions to the education and art of Azerbaijani music.

**Keywords:** *Azerbaijani musical culture, Uzeyir Hajibeyli, Sevil Hajiyeva, choral music, female conductor, choirmaster.*

**Джамиля Абдулзаде**

## РОЛЬ СЕВИЛЬ ГАДЖИЕВОЙ В РАЗВИТИИ ХОРОВОГО ИСКУССТВА АЗЕРБАЙДЖАНА

Азербайджанская музыкальная культура с её богатой историей и уникальными личностями внесла значительный вклад в мировое музыкальное наследие. Одной из ключевых фигур этого наследия является великий композитор Узеир Гаджибейли, который заложил основы азербайджанской классической музыки, объединив национальные мотивы с европейскими музыкальными формами, тем самым создав ценное наследие для будущих поколений.

В статье рассматривается жизнь и творчество Севиль Гаджиевой – ведущей женщины-дирижёра Азербайджана, хормейстера, Заслуженного деятеля искусств. Профессиональная деятельность Севиль ханум в области хоровой музыки сопровождается её достижениями как в Азербайджанском государственном академическом театре оперы и балета, так и в педагогической сфере. Она успешно участвует во многих местных и международных проектах, играя значительную роль в популяризации азербайджанской музыки.

Севиль Гаджиева дирижировала как азербайджанскими классическими операми, так и произведениями мировой музыкальной культуры, тем самым укрепляя позиции женщин-музыкантов в искусстве. Её методика преподавания, высокий профессионализм и творческий подход стали неоценимым вкладом в развитие музыкального образования и театрального искусства Азербайджана.

**Ключевые слова**: музыкальная культура Азербайджана, Узеир Гаджибейли, Севиль Гаджиева, хоровая музыка, женщина-дирижёр, хормейстер.

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 10.10.2025**
**Son daxilolma tarixi:18.11.2025**